# GƏNCƏDƏ YENİ TÜRBƏ-ZİYARƏTGAH

Xalqımızın ümummilli lideri, böyük siyasi dövlət xadimi Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə Nizami yurdu qədim Gəncəyə daima diqqət və qayğı göstərmişdir. Onun 13 iyun 1998-ci il tarixli "Tarix və Mədəniyyət abidələrinin qorunması haqqında" fərmanı, 13 avqust 2001-ci il tarixdə "Milli - mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi" barədə bəyanatı məhz xalqımızın tarixinə, milli-mənəvi dəyərlərinə, soykökünə dərin hörmətin, diqqət və qayğının təzahürü olmuşdur.

Bu diqqət və qayğı bu gün hörmətli prezidentimiz cənab İlham Əliyev tərəfindən ləyaqətlə davam etdirilir.

Məhz bunun nəticəsidir ki, tarixi şəxsiyyət Heydər Əliyevin adını daşıyan "H. Əliyev fondunun və onun Prezidenti YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə fondun vəsaiti hesabına Gəncədə iki yeni türbə-ziyarətgah ucaldılmışdır ki, bu da şəhər əhalisinin, Gəncəni sevən hər bir azərbaycanlının böyük sevincinə səbəb olmuşdur.

Gəncə Dövlət Tarix Mədəniyyət Qoruğunda, şəhərin qədim ərazisində, gəncəlilərin yaddaşında öz qəhrəmanlığı və məğrurluğu ilə silinməz iz qoyan, o zamanki Gəncədə şəhər sənətkarlarının əxilik - qardaşlıq ittifaqının



rəhbəri, islam dinimizin təbliğatçısı, yadelli işğalçılara qarşı barışmaz mövqe tutan xalq oğlu Cömərdi Qəssabın məzarı üzərində o dövrün milli memarlıq üslubuna uyğun şəkildə səkkizguşəli türbə ucaldılmışdır.

Qeyd etmək lazımdır ki, Cömərdi Qəssab türbəsi Sovet hakimiyyəti dövründə, yəni, 60-cı illərdə tamamilə dağıdılmışdır. Lakin illər keçmiş, xalqımız müstəqil Dövlət qurmuş öz tarixinə, soykökünə milli dəyərlərinə yenidən qayıtmışdır.

Gəncənin XVII əsr tarixi-memarlıq abidələrindən biri olan Cümə məscidinin həyətində isə daha bir möhtəşəm türbə-Cavad xan türbəsi də əhalinin və şəhərin qonaqlarının ziyarətgahına çevrilmişdir.

Azərbaycanın azadlığı uğrunda şəhid olmuş milli qəhrəman, gəncəli Cavad xan 1785-ci ildən - 1804-cü ilin yanvar ayının 3-nə dək Gəncənin sonuncu hakimi olmuşdur. Onun hakimiyyəti dövründə Gəncə xanlığı təşəkkül tapmış, ərazisi xeyli genişlənmişdir. Cavad xan müstəqil siyasət yeritmiş, xanlığın özünün zərbxanası, bayrağı olmuşdur. O, şəxsi möhürünün üstündə bu sözləri yazdırmışdır: "Düşmənə amansız, dostunun əhdini qırmayan Cavad xan"

Cavad xan çar Rusiyasının Qeneralı Sisyanovun hədə-qorxu dolu məktublarına məhəl qoymamış, cəsarətlə bildirmişdir ki, "Gəncəyə yalnız mən öləndən sonra keçə bilərsən, bildin? Mən öləndən sonra, özgə cür yox!"

Bu elə də oldu. 1804-cü il yanvar ayının 3-də düşmən qəti hücuma keçmiş, bu döyüşdə Cavad xan və onun oğlu Hüseynqulu ağa da qəhrəmanlıqla şəhid olmuşdur.

"Cavad xan döyüşdədir,
Sisyanovdan bac alır,
Şəhidlik zirvəsinə



Şəhidlik zirvəsinə
O, mərdliklə ucalır.

Onun qəhrəmanlığı
Yerə - göyə səs salır,
Bu şərəfli ölümdən
Düşmən özü alçalır."

Qədim Gəncə torpağının rus işğalçılarından müdafiəsi zamanı qəhrəmancasına həlak olan Cavad xan şəhərin mərkəzində - Cümə Məscidinin Həyətində dəfn olunmuşdur. Sovet hakimiyyəti dövründə Cavad xanın məzarı şəhərin Səbiskar qəbirisanlığına, 1990-cı ildə isə şəhər əhalisinin təkidi, tələbi ilə yenidən öz ilk və əbədi yerinə-məscidin həyətinə köçürülmüşdür.

Bu gün şəhər əhalisinin ziyarətgahına çevrilən milli qəhrəman Cavad xanın, eləcə də Cömərdi Qəssab türbələrinin tikintisi üçün bütün Gəncəlilər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və "Heydər Əliyev fondu"nu onun Prezidenti YUNESKO-nun xoşməramlı səfiri, tariximizə, mədəniyyətimizə hörmətlə yanaşan Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildirirlər.

**Bəxtiyr Muradov**
***Gəncə Şəhər Mədəniyyət idarəsinin inspektoru, "Mədəni-Maarif" jurnalının zona müxbiri.***